# 1-ci Azərbaycan Budo (yapon döyüş sənətləri) Festivalı

Ötən həftənin şənbə günü, 5 oktyabr tarixində Yaponiya Səfirliyinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin əməkdaşlığı, JTI Azərbaycan, Toyota Bakı Mərkəzi, YAR Energy və Travelaze şirkətlərinin dəstəyi ilə 1-ci Azərbaycan Budo (yapon döyüş sənətləri) Festivalı keçirilmişdir. Festivalın əsas məqsədi yapon mədəniyyətinin ayrılmaz hissəsi olan yapon döyüş sənətlərinin Azərbaycan əhalisi arasında yayılması, təbliğatı, yapon ruhunun mümkün qədər çox insana çatdırılması olmuşdur. Festivalın açılış mərasimində Yaponiyanın Azərbaycan Respublikasındakı səfiri Teruyuki Katori, Ekologiya və Təbii Sərvətlər naziri, Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Muxtar Babayev, Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov, Milli Məclisin Gənclər və İdman komitəsinin sədri, Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidenti Ülvi Quliyev, yapon döyüş sənətləri federasiyaları rəhbərləri iştirak etmişlər. Mərasimdə rəsmi nitqlərdən sonra, festivalda təmsil olunan karate-do, cüdo, kendo, aikido, ciu-citsu və sumo yapon döyüş sənətlərinin təmsilçiləri- federasiyalara Yaponiya səfiri tərəfindən "Təşəkkürnamələr" təqdim olunmuşdur.

Festivalda ümumilikdə təxmini 90 nəfər olmaqla 6 idman növü- karate-do, cüdo, kendo, aikido, ciu-citsu və sumo üzrə idmançılar təmsil olunmuş, hər biri 5 dəqiqə olmaqla 2 nümunəvi çıxış təqdim etmişlər. Tədbirdə yapon budo sənətlərindən başqa yapon rəqsi, parkur, musiqili nömrə və digər əyləncəli proqramlar da nümayiş olunmuş, əsas hissə bitdikdən sonra yapon mədəniyyəti, mətbəxi, texnologiyası, yapon maşınları və döyüş sənətləri federasiyalarının stendlərinə baxış keçirilmişdir. Tədbirdə ümumilikdə 800 nəfərədək tamaşaçı iştirak etmişdir.


Festivalın rəsmi qonaqları


Rəsmi açılış


Tədbirə gələn tamaşaçılar


İdmançıların paradı


Yapon rəqsi nümayişi


Kendo nümayişi


Karate nümayişi


Cüdo nümayişi


Paracüdo nümayişi


Aikido nümayişi


Ciu-citsu nümayişi


Sumo nümayişi





Stendlər